# Astarada Zəfər şəhidi anıldı...



**44 günlük haqq savaşımızda hünər göstərib Vətənin yaşaması naminə canından keçən zəfər şəhidi Nurlan Rəhimov ulduzlu ömrünün 44 ilinə gəlib çatdı.**

Milyonların ürəyində məskən quran Astara elinin qəhrəman oğlu çavuş rütbəsində İkinci Qarabağ müharibəsi başlanan gündən 30 il yağı tapdağına dönən Vətən torpaqlarının azadlığı uğrunda cəbhənin ən qaynar nöqtələrində döyüşə atılıb. Erməni dığaların kabusuna çevrilməklə onlara qan qusdurub. Müharibə meydanında mərdliyi, cəsarəti, yurd sevgisi onunla çiyin-çiyinə vuruşan yoldaşlarına da nümunə olub. 30 sentyabrda Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində qəfil atılan gülləyə tuş gələn Nurlanın Vətən eşqli qəlbi əbədi olaraq dayanıb. Adını tariximizin şanlı səhifəsinə yazan qəhrəman həm də ölümündən sonra dövlət tərəfindən "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və digər medallara layiq görülüb. Övladları Əlövsət və Səidə onun kimi doğma Azərbaycana ürəkdən bağlanıblar.

Zəfər şəhidi Nurlan Rəhimov cismən aramızdan getsə də, həmişə, hər yerdə böyük sevgi, məhəbbət və dərin ehtiramla anılır, şərəfli ömür yolunu örnək sayırlar.

Astara şəhər Mirzə Ələkbər Sabir adına 1 saylı tam orta ümumtəhsil məktəbində sinəsini Vətənə sipər edib ölməzliyə qovuşan qəhrəmanın doğum gününə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Yeni Azərbaycan Partiyası (YAP)Astara rayon təşkilatının sədri Həbib Cəfərov, Lənkəran-Astara Regional Təhsil İdarəsinin Astara rayon üzrə Təhsil Sektorunun müdiri Xədicə Əliyeva, şəhid ailələri və məktəbin kollektivi iştirak etdilər.

Həbib Cəfərov bildirdi ki, Nurlan Rəhimov Vətən, torpaq uğrunda özünü fəda edib. Bundan böyük şərəf, qürur ola bilməz. Nəsimi belə olanlar heç vaxt ölmürlər. Günəş ömrü yaşamaqla daim bizdən ucada dururlar. İndi hər dəfə Nurlanın adı çəkiləndə bütün Azərbaycan xalqı iftixar hissi keçirdir.

Daha sonra məktəbin tarix müəllimi Gülnar xanımın zəfər şəhidi Nurlan Rəhimovla bağlı təsirli çıxışı ürəkləri riqqətə gətirdi. Eləcə şagirdlərin ifasında Vətəni, qəhrəmanlığı vəsf edən şerlər, bədii çıxışlar və hazırlanmış kompozisiyalar iştirakçılar tərəfindən böyük maraqla izlənildi. Bir sözlə, yüksək səviyyədə təşkil olunan tədbir hər kəsin yaddaşında dərin iz qoydu.

Ruhun şad, yatdığın yer cənnət olsun, şəhid Nurlan Rəhimov! Torpaq uğrunda ölən varsa, Vətəndir.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı Xəbər .- 2025.- 25 noyabr (№213).- S.14.